

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

1 sentyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 34 (3597)

# QƏTİYYƏTLİ SİYASƏT VƏ DƏYİŞƏN REALLIQLAR

## *Azərbaycan dünyada öz sözü və mövqeyi olan ölkə kimi tanınır*



Bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutması özünü dünyaya bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsinin, beynəlxalq münasibətlərini dövrün tələblərinə uyğun tənzimlənməsinin nəticəsidir. Ölkəmizin son iyirmiillik tarixinə nəzər saldıqda görərik ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursu Azərbaycanın beynəlxaq aləmdə imicinin yüksəlməsini şərtləndirib, öz mövqeyini diktə etməyi bacaran ölkəyə çevirib. Bunun başlıca səbəbi isə ölkənin iqtisadi qüdrətinin getdikcə daha da güclənməsidir.

Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi gücü olan Azərbaycan qlobal layihələr həyata keçirən, islahatlar aparan, regional əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkə kimi tanınır. Ölkə iqtisadiyyatına 300 milyard dollar investisiyanın qoyulması, xarici ölkələrə yatırımların edilməsi, valyuta ehtiyatlarının 53 milyard dollara yüksəlməsi bunu deməyə əsas verir.

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərdən sonra isə regionda yaranan yeni reallıqlar və bölgədə diktənin Azərbaycana məxsus olması bir daha təsdiq edir ki, ölkəmiz Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktorudur.

Yeni İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan bölgədəki statusunu bir qədər də möhkəmləndirmiş oldu. İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini verir.

Dövlətimizin başçısının ən mötəbər tədbirlərə dəvət olunması, aparıcı ölkələrin rəhbərləri, nüfuzlu ictimai-siyasi xadimlərlə görüşləri həm özünün, həm də ölkəmizin yüksək nüfuzunun göstəricisidir.

Azərbaycanın beynəlxalq təşkilatlara sədrlik etməsi də ölkəmizə göstərilən etimadın əyani təzahürüdür.

Göründüyü kimi, Prezident İlham Əliyevin ötən illərdəki çoxşaxəli fəaliyyəti, yürütdüyü müstəqil siyasət Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə və ən etibarlı tərəfdaşa çevirib.

Dövlətimizin başçısı prezidentlik fəaliyyətinin qürurverici hesabatını söyləyərkən bir məqamı çox doğru vurğulayır ki, Azərbaycanın inkişaf yolu başqa ölkələr üçün işıq yoludur. Bunu şərtləndirən digər amil isə iqtisadi və siyasi müstəqillikdir.

Bir sözlə, İlham Əliyevin düşünülmüş inkişaf konsepsiyası ilə Azərbaycan tam müstəqil siyasət aparır, qlobalmiqyaslı təşəbbüslərlə çıxış edir, istənilən məsələ ilə bağlı öz mövqeyini çəkinmədən ifadə edir. Bu da əlbəttə ki, Azərbaycanın geosiyasi çəkisini getdikcə artırır.

# DAXİLİ İŞLƏR NAZİRİ ŞƏKİDƏ VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 25-də Şəki Şəhər-Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Daxili işlər naziri qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Sonra Şəhər-Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından gələn 162 vətəndaşı qəbul edən nazir onların müraciətlərini dinləyib, problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onların ərizə və müraciətlərinə operativ yanaşılmasına, o cümlədən göstərilən diqqətə və həssas münasibətə görə dövlətimizin başçısına minnətdarlıq ediblər.

Bölgəyə səfəri çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında Şəki şəhəri və ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib.

Xidmətə qəbulun şərtlərinə uyğun gələn 87 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 23 nəfəri Vətən müharibəsi iştirakçısı, 2 nəfəri isə şəhid ailələrinin üzvüdür.







# VƏTƏN MÜHARİBƏSİNİN DAHA 27 İŞTİRAKÇISI POLIS ORQANLARINDA XİDMƏTƏ QƏBUL OLUNDU



Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında 118 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 27 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.



# Həm maarifləndirir, həm də qoruyurlar

## *Yollar can almasın deyə, gecə-gündüz xidmətdədirlər*

Paytaxt yollarında tıxaclar tez-tez müşahidə olunur. Belə olan halda istər sürücülərin, istərsə də digər yol hərəkəti iştirakçılarının təhlükəsizliyini qorumaqdan ötrü yol polislərinin üzərinə daha çox məsuliyyət düşür. Bəzən onların ünvanına giley səsləndirənlərə də rast gəlinir. Bu da təbiidir. Amma mənzil başına tələsənlər, iş yerinə vaxtında yetişməyə çalışanlar, gündəlik qayğılarının ardınca yol alanlar, ümumiyyətlə, gün ərzində avtomobildən istifadə edənlər yaxşı bilirlər ki, baş verəcək yol qəzalarının, yaşanacaq faciələrin qarşısını almaqdan ötrü polis gecə-gündüz, isti-soyuq bilmədən xidmət başındadır.

Məhz buna görədir ki, redaksiyamıza ünvanlanan çoxsaylı təşəkkür məktublarında yol polislərinin xidmətindən məmnunluq ifadə olunur. Məktub müəlliflərinin fikirlərini təhlil edərkən bir daha əmin olduq ki, görülən iş diqqətdən kənar qalmır, rəğbət doğurur.

Sosial şəbəkə izləyicimiz **Mirəli Həsənov** avtomobilini əzərək qəza törədən şəxsin qaçması ilə bağlı müraciətinə operativ şəkildə baxılaraq tapılmasında göstərdikləri köməkliyə görə **Nizami RPİ Dövlət Yol Polisi Şöbəsinin** əməkdaşlarına təşəkkürünü bildirir.

**Rauf Sultanov** həm təşəkkürünü, həm də peşmanlığını belə ifadə edir: "Biz sürücülər, mənzil başına tələsərkən bəlkə də tam mahiyyətinə varmırıq ki, yol hərəkəti qaydalarına



riayət etməmək, əsasən də sürət həddini aşmaq ağır nəticələrə gətirib çıxarır. Sonrakı peşmançılıq isə fayda vermir. Avtomobilimdə edilmiş konstruksiya dəyişikliyi səbəbindən cərimə meydançasına aparılması ilk anda məni narahat etsə də, sonda başa düşdüm ki, qaydalara riayət etmək hər birimizin borcudur və bu bizim təhlükəsizliyimiz üçündür. Səmimi qəbula və məni narahat edən sullarıma aydınlıq gətirildiyinə görə **Baş Dövlət Yol Polisi İdarəsinin** əməkdaşlarına təşəkkürümü bildirirəm. Bu artıq günümüzün bir reallığıdır ki, polis bizi hər yerdə, hər cür təhlükədən qoruyur".

**Elvin Bağırov** yollarda, əsasən də piyada keçidlərində və sıxlıq olan yerlərdə təhlükəsizliyin təmini istiqamətində yol polisləri tərəfindən keçirilən profilaktiki tədbirləri təqdir edir, maarifləndirmənin də bu yöndə əhəmiyyətini xüsusi vurğulayır.

"Bəzən biz sürücülər nəticəni düşünmədən səhlənkarlığa yol veririk. Bu da ağır fəsadlara gətirib çıxarır. Avtomobilimin nasazlığı səbəbindən bəzi problemlərlə üzləşmişdim. Müraciətimə **Səbail RPİ Dövlət Yol Polisi Şöbəsinin** əməkdaşları tərəfindən operativ və obyektiv şəkildə baxılması narazılığıma son qoydu. Çox sağ olsunlar, onlar sözün əsl mənasında, bizim xilaskarlarımızdırlar",- deyə sosial şəbəkə izləyicimiz Ruslan Süleymanov yazır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Azərbaycan Polisi Laçında!



Azərbaycan Prezidentinin tapşırığına əsasən, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən Laçın rayon müvəqqəti komendantlığı yaradılmaqla, Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Adil Əsədov müvəqqəti komendant təyin olunub.

# Uşaqlarla bağlı vacib görüş

## *Bakı şəhər BPİ-də Fəaliyyət Planının icrası müzakirə edilib*

Avqustun 30-da Bakı şəhər Baş Polis İdarəsində "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"-nın icrası ilə bağlı dövlət və qeyri-hökumət təşkilatları ilə görüş keçirilib.




Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Bakı Şəhəri İcra Hakimiyyətinin, Ümidli Gələcək STİB-nin nümayəndələri və yerli polis orqanlarının yetkinlik yaşına çatmayanlarla iş üzrə əməkdaşları iştirak ediblər.



Tədbir Azərbaycanın ərazi bütövlüyü yolunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

**Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Elnur Kərimov** uşaq hüquqlarının qorunması istiqamətində həyata keçirilən dövlət siyasətinin etibarlı təminat mexanizmləri yaratdığını, Fəaliyyət Planının da bu mənada mühüm əhəmiyyətə malik olan sənədlərdən biri olduğunu bildirib. Qeyd olunub ki, görüşün keçirilməsində məqsəd sənəddə nəzərdə tutulan yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində aidiyyəti dövlət və qeyri-hökumət təşkilatları ilə işin təkmilləşdirilməsi, polislə qarşılıqlı əlaqənin qurulmasıdır.

Daha sonra **BPİ İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili Bölməsinin rəisi, polis polkovniki İbrahim İsmayılov** məruzə ilə çıxış edərək, Daxili İşlər Nazirliyinin yetkinlik yaşına çatmayanlarla profilaktiki iş aparan əməkdaşlarının fəaliyyətlərini mövcud qanunvericilik aktlara əsasən təşkil etdiklərini vurğulayıb. Bölmə rəisi paytaxt ərazisində yerləşən rayon polis idarələrinin bu sahədəki əməkdaşlarının uşaqların qanunsuz əməyə cəlb edilməsi, hüquqpozma əməli törətmiş yetkinlik yaşına çatmayanların açıq və qapalı təlim-tərbiyə müəssisələrinə, həmçinin sosial təhlükəli vəziyyətdə olan uşaqların sığınacaqlara yerləşdirilməsi, avaraçılıqla məşğul olan, dilənən, küçə həyatı sürən uşaqların qorunması istiqamətində həyata keçirdikləri tədbirlər barədə ətraflı məlumat verib.

Digər iştirakçılar da elan edilən mövzular üzrə çıxışlar edib, fikir mübadiləsi aparıb, təkliflər səsləndiriblər.

**Tədbirin moderatoru, İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** dövlət və qeyri-hökumət təşkilatları ilə anoloji görüşün növbəti ayda keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

*"Polis"*

# Daha bir uğurlu əməliyyat

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən, əvvəllər məhkum olunmuş İlham Abasov saxlanılıb.

Şəxsi axtarış zamanı ondan 2 kiloqram 335 qram heroin və 520 qram tiryək aşkarlanaraq götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq İ.Abbasovun Liman şəhəri ərazisində zibillikdə gizlətdiyi bağlamada 4 kiloqram 400 qram marixuana, bir ədəd "TOZ 8" markalı silah və silaha aid 24 ədəd patron aşkarlanıb. Davam etdirilən tədbirlərlə İ.Abasovun həmin narkotik vasitəni Liman şəhər sakini Vüqar Hüseynovdan satış məqsədilə əldə etdiyi müəyyən edilib və sonuncu da polis əməkdaşları tərəfindən saxlanılıb. Ondan 44 qram heroin və 67 qram tiryək aşkarlanaraq götürülüb.

Lənkəran ŞRPŞ-nin əməkdaşları tərəfindən son 10 gün ərzində keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər cinayət əməllərini törətməkdə şübhəli bilinən, ümumilikdə, 21 nəfər saxlanılaraq məsuliyyətə cəlb olunub.

# Ömrü bahar qədər oldu...





> *"Məni xatırlayıb ağlama, ana!"*
>
> *Axtarıb gözlərin tapmayan zaman,*
> *Məni xatırlayıb ağlama, ana!*
> *Payızda yağışlar yağdığı zaman,*
> *Məni xatırlayıb ağlama, ana!*

İnsanın qəlbini göynədən bu misralar 44 günlük Vətən müharibəsində şəhadətə yüksəlmiş çavuş Eyniyev Tərlan Gölişad oğlunun cib dəftərçəsində yazdığı və ailəsinə ünvanladığı şeirdən bir parçadır. Atasının qeyd etdiyi kimi, Tərlan bu şeiri cəbhə bölgəsində olarkən, hələ döyüş əməliyyatlarına qatılmazdan öncə qələmə alıb. Cəsur döyüşçümüz müqəddəs amal uğrunda qəhrəmancasına şəhid olduqdan sonra ailə üzvləri ona məxsus əşya torbasındakı şəxsi əşyalarını təhvil aldıqları gün bu şeirlə tanış olublar.

**Çavuş Tərlan Eyniyev** 1993-cü il yanvarın 22-də Yardımlı rayonunun Zövün kəndində doğulub. Orta təhsilini Zövün kənd tam orta məktəbində alıb. Hələ orta məktəbdə oxuyarkən vətənpərvər ruhda böyüyüb tərbiyə alan Tərlan uşaq yaşlarından idmana və hərbçi peşəsinə böyük maraq göstərib. İdmanın karate növü ilə məşğul olub, respublika birinciliyi üzrə keçirilən bir çox yarışda yüksək nəticələr göstərib, müxtəlif dərəcəli diplom və medallarla təltif edilib.

2012-ci ilin iyul ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunların müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra Qoşunların sıralarında qalaraq, hərbi xidmətini davam etdirməyə qərar verib. Beləliklə, həmin il 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2016-cı ilin may ayından isə 16077 saylı hərbi hissənin "Vaşaq" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda heyət nəfəri, atıcı vəzifələrində xidmət edib.

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Əfqan Zaxmayevin sözlərinə görə, Tərlan onun ən yaxın dostu olub. Xüsusi təyinatlı dəstədə birgə xidmət etdikləri dövrdə subay hərbi qulluqçular üçün inşa edilmiş yataqxanada dörd il otaq yoldaşı olublar. Tərlanın hərbi hissəyə gəldiyi gündən nizam-intizamı, səliqə-sahmanı ilə seçilən hərbi qulluqçu olduğunu, keçirilən təlimlərdə hər zaman fərqləndiyini, məhz bu səbəbdən də dəstənin komandanlığı tərəfindən dəfələrlə kollektivə yeni daxil olan yoldaşlarına nümunə göstərildiyini bildirdi.

2019-cu ilin yanvar ayından etibarən qoşunların 67987 saylı hərbi hissəsinin "Kobra" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda atıcı vəzifəsində xidmətini davam etdirən Tərlan yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə hər zaman fərqlənib, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılan çavuş T.Eyniyev silahdaşları ilə birgə Füzuli və Cəbrayıl rayonlarının bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Vətən müharibəsi zamanı Tərlanla eyni qrupun tərkibində vu-



ruşmuş ehtiyatda olan çavuşlar Rasim Hacıyev (Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində yaralanıb) və Çingiz Qədimovun (Cəbrayıl istiqamətində yaralanıb) söylədiklərindən də məlum olur ki, gözünü belə qırpmadan intiqam hissi ilə döyüş meydanına atılan igid silahdaşımız düşmənin xeyli sayda canlı qüvvəsini məhv etməklə əsl qəhrəmanlıq nümunələri göstərib.

**5 oktyabr 2020-ci il.** Cəbrayıl istiqamətində gedən döyüş Tərlanın son döyüşü oldu. Bu barədə xatirələrini bizimlə bölüşən qazimiz çavuş R.Hacıyev tərkibində Tərlanın da olduğu qrupun şəxsi heyəti tərəfindən qarşıya qoyulan bütün döyüş tapşırıqlarının uğurla yerinə yetirildiyini dedi: "Oktyabrın 4-dən 5-nə keçən gecə Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə ermənilərin Cəbrayıl istiqamətindəki yüksəkliklərdə yerləşən postlarına hücum etdik. Bir neçə mühüm postu ələ keçirdik. Məğlubiyyətlə barışmaq istəməyən düşmən azad etdiyimiz mövqeləri müxtəlif növ silahlardan və artilleriyadan atəşə tutmağa başladı. Heç bir qorxu hissi olmayan Tərlan bu döyüşdə öz sərrast atəşilə ermənilərin xeyli sayda canlı qüvvəsini məhv etdi. Lakin şiddətli döyüşün gedişində aldıqları ağır güllə və qəlpə yaralarından cəsur hərbi qulluqçularımız - çavuşlar Tərlan Eyniyev, Abas Şahbazov, eləcə də Müdafiə Nazirliyinin adlarını xatırlamadığım xüsusi təyinatlılarından iki nəfər silahdaşımız qəhrəmancasına şəhid oldu. Bundan əlavə, bu döyüşdə qrupumuzdan 4 nəfəri Daxili Qoşunlardan olmaqla, ümumilikdə, 16 nəfər xüsusi təyinatlımız yaralandı".

Ailəsinin bildirdiyinə görə, çavuş Tərlan Eyniyev öz vəsiyyətinə əsasən, 2020-ci il oktyabrın 7-də Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsindəki Mirmövsüm Ağa Ziyarətgahında dəfn olunub. Subay idi. Ölümündən doqquz ay öncə nişanlanmışdı.

İmişli regional "ASAN xidmət" mərkəzi tərəfindən verilmiş 7 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 6-da Füzulidə hərbi əməliyyat nəticəsində həlak olduğu yazılıb.

***Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Eyniyev Tərlan Gölişad oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.***

Şəhidin qardaşı, Vətən müharibəsi iştirakçısı çavuş Vüsal Eyniyev 99713 saylı hərbi hissənin "Şahin" xüsusi təyinatlı dəstəsinin nümunəvi hərbi qulluqçusudur. Vəzifə borclarını şərəflə yerinə yetirən Vüsal "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# HƏSRƏT DƏ BİTDİ, MÖHNƏT DƏ



Söhbət Laçın həsrətindən, Laçın möhnətindən gedir. O Laçın ki, onun həsrətindən 30 ildir ürəyimiz yara bağlayıb. Bir gözümüz güləndə, o biri gözümüz ağlayıb, yaşı içimizə dolub...

Laçın mənim dünyaya göz açdığım, məni dünyaya gətirmiş valideynlərimin haqq dünyasına qovuşduqları məkandır, qədim yurd yeridir.

Bəzən insan dünən kiminlə harada, hansı mövzuda söhbət etdiyini xatırlaya bilmir. Amma 30 ildir Azərbaycan Televiziyasının "Xəbərlər" proqramından və "Cəbhə xəttindən" adlı verilişdən eşitdiyim iki xəbər qulaqlarımda indi də səslənir. 1992-ci ilin may ayında eşitdiyim xəbər qısa və konkret idi: "Laçın itirilmişdir". İki ay sonra, iyul ayında Şəmistan Əlizamanlının elan etdiyi xəbər isə belə idi: "Bu gün Hoçaz yüksəkliyi uğrunda gedən döyüşlərdə 7 həmyerlimiz şəhid olmuşdur".

Qeyd edim ki, həmin 7 şəhidin biri mənim doğmaca dayım oğlu (həm də övladlarımın dayısı), 24 yaşlı Qasım Alxasov idi. Rusiyada yaşayırdı. Xarici ölkələrə üzən gəmilərdə işləyirdi. Uzaq Şərqdəki dolanışıqlı işini, rahat həyatını qoyub Vətənə qayıtmışdı. Məzarı Bakıda-Şəhidlər Xiyabanındadır...

Etiraf edək ki, Vətən müharibəsi başlayana qədər, elə ondan sonrakı dövrdə də Ali Baş Komandandan həmişə qələbə soraqlı xəbərlər eşitmişik. Düzdür, diplomatik müstəvidə qazandıqlarımızı, daha doğrusu, cənab Prezidentin siyasət meydanındakı qələbələrini gördükcə, ürəyimizdə artıq sözü silaha verməyin vaxtı çatıb deməsik. Şükürlər ki, o müqəddəs cümlə müzəffər Prezidentimizin hücum əmri kimi Şuşaya yenidən bayraq sancmaq üçün ürəyi yanan oğulları düşmən üstünə apardı və nəticəsini xalqımız da gördü, dost da, düşmən də...

Laçının işğaldan azad olunması xəbərinə hamılıqla sevinirik. Amma bir şey də var ki, Laçın da 44 günlük Vətən Müharibəsinin nəticəsi olaraq işğaldan azad edilmişdir. Artıq həsrət də, möhnət də bitmişdir.

Bu gün Laçında ucalan bayraq üzü Zəngəzura doğru həsrətlə dalğalanır. Həsrətimiz bizi yenə də Vətən sarı dartır. Hələ görüləsi çox işimiz, tikiləsi çox yuvamız var.

Laçındayıq, ordumuz, Azərbaycan əsgəri Laçındadır. Laçın qayaların başında laçın oğullar Vətənin keşiyini çəkirlər.

*Rahib Qarayev,*
*istefada olan polis polkovniki*

# Həqiqət axtarışında

## Onlar cinayətlərin açılması üçün bütün zəruri istintaq hərəkətlərini həyata keçirirlər



İstintaq hər nə qədər leksik mənasına görə cinayətlə əlaqədar məsələni aydınlaşdırmaq üçün aparılan sorğu-sual kimi başa düşülsə də, mahiyyət etibarilə o həqiqət axtarışıdır. Oğru, quldur, soyğunçu, ümumiyyətlə, istənilən cinayətkar məsuliyyətdən yayınmaq üçün ilk növbədə həqiqəti gizlətməyə can atır.

Zaqatala RPŞ-nin İstintaq Bölməsinin müstəntiqləri də məhz həqiqəti axtarıb tapmağa çalışırlar ki, ədaləti təmin edə bilsinlər. Onların müvafiq hesabat dövrü ərzində statistik göstəricilərinə əsasən törədilən cinayətlərdə həqiqətin nədən ibarət olduğunu, təqsirli ilə təqsirsizi ayırd etmək naminə səylə çalışdıqlarını söyləmək olar. Belə ki, cari ilin 6 ayı ərzində Zaqatala rayonunda baş vermiş cinayətlərin açılma faizi 92,9 təşkil edib. Bu, rəqəm, əslində, hər bir cinayət işində müstəntiqlərin cəzanın labüdlüyü prinsipinə nə qədər önəm verdiklərini, qanunun aliliyini təmin etmək məqsədi ilə qətiyyətli davrandıqlarını ifadə edir. Üstəlik, istintaqı başa çatmış və məhkəməyə göndərilən işlərdə bütün qanunu prosedurlar gözlənildiyinə, obyektiv araşdırılma apardığına görə cinayət işləri təkrar araşdırma aparılması üçün geri göndərilməyib.

Bu uğur göstəricisinin əsasında istintaq orqanına daxil olan vətəndaş müraciətlərinə, o cümlədən zərərçəkmişlərə həssas yanaşmanın başlıca rol oynadığı şübhəsizdir. Çünki hər bir polis bölməsi, hər bir səlahiyyətli polis əməkdaşının xidməti otağı ədalətə açılan ilk qapıdır və vətəndaşlar aradığı çarəni məhz burada tapırlar, tapmalıdırlar da.

**Zaqatala Bölməsinin İstintaq Bölməsinin rəisi, polis mayoru Mehrab Məmmədovun** istintaqla əlaqəli müraciət edən hər bir rayon sakinini qəbul edib dinləməsi, probleminin həlli istiqamətində Polis Şöbəsinin rəhbərliyi ilə əməli addımlar atılması bu rayonun polis orqanını gerçək güvənc yerinə, ədalətin tapıldığı ünvana çevirir. Burada xidmət edən gənc müstəntiqlər, **polis leytenantı Pərvin Rüstəmov və polis kapitanı Surac Əhmədovun** da sərgilədikləri əzm, iradə cinayətlərin üstünün açılmasında müsbət tendensiyanın qorunub-saxlanılacağına və hər zaman həqiqəti tapacaqlarına parlaq ümid vəd edir.

*R.Mehtiyev*

# Sıravi və kiçik rəis heyəti vəzifələrinə (operator) xidmətə qəbulla bağlı müsabiqə

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

***Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.***

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

İştirak etmək istəyən şəxslər 2022-ci ilin avqust ayının 25-dən sentyabr ayının 25-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-63 / 80-63 daxili**
**(012) 590-80-66 /80-66 daxili**

# Dünyanın yükünü “gəzdirən” polis






**Sabunçu RPİ-nin dünyanın yükünü də, öz ad-sanını da başı üstündə “gəzdirən” bir əməkdaşı var - polis polkovnik-leytenantı Asif Məlikov.** Şöhrəti bir vaxtlar SSRİ-nin ən ucqarlarına qədər gedib çıxmış ağırlıqqaldırma üzrə gənc çempionun adı dillər əzbəri olub. İdman cameəsi bizim bu Herakl kimi əməkdaşımızı heç indi də unutmayıb.

O, nadir insanlardan biridir ki, haqqında yazarkən təşbehdən istifadə etməkdən çəkinmirsən. Çünki bu sözlərlə gerçəkliyi ifadə etməyə can atdığını daxilən hiss edirsən və buna görə əndazəni aşmadığına cəsarətli əminlik yaranır səndə.

Zarafat deyil, o, dörd dəfə SSRİ çempionu, bir dəfə Avropa çemponu olub, dəfələrlə yeniyetmələr arasında rekorda imza atıb.

Uşaqlıqda idmanın sambo növü ilə məşğul olsa da, Sumqayıtdan onun doğulduğu İsmayıllı rayonuna təyinat almış məşqçi Nüsrət Abdullayev onu da, atasını da inandırıb ki, “Asif məhz ağırlıqqaldırmada dünya çempionu olacaq”. Gərgin məşqlərin nəticəsi özünü çox gözlətmir. Asif ilk dəfə 1988-ci ildə 48 koloqram çəki dərəcəsində 117,5 kiloqramlıq SSRİ rekordunu 122,5 kiloqram qaldırmaqla yeniləyir. Erməni atletinə məxsus doqquz illik rekordu o dəyişir.

Deyir: “Bundan sonra SSRİ-nin gənclərdən ibarət yığma komandanın tərkibinə qəbul edildim. Elə həmin ildə Bolqarıstanın Varna şəhərində Avropa çempionu titulunu da qazandım”.

Müstəqilliyin ilk illərində yarışlarda iştirak etməyə maddi sıxıntılar yarandığından, vəziyyətdən çıxmaq üçün Ukraynaya gedib karyerasını orada davam etdirməyə başlayır. Bir neçə il bu ölkənin idman şərəfini qoruyur.

Bu peşəkar idmançını Azərbaycana, öz ölkəsinə Prezident İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçiləndən sonra qaytarıb və beləcə, Asif Məlikov yenidən öz dövlətinin himni, bayrağı üçün çiynini, sözün əsl mənasında, ağır yükün altına verib: “Ukraynada qalib kimi kürsüyə qalxanda duyğusal olaraq heç nə hiss etmirdim. Ölkəmizə gələndən sonra isə fəxri pillədə Azərbaycanın dövlət Himnini eşidəndə, həmişə ağlamışam. Bu qürur və sevinc hissinin doğurduğu göz yaşları idi...”

Dünyanın ağırlığını çiyninə qaldıran çempion yükünün üstünə bir də polis olmaq kimi ağır, çətin bir peşənin məsuliyyətini yükləyir.

Hazırda Sabunçu RPİ İctimai Təhlükəsizlik Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin baş inspektoru olan polis polkovnik-leytenantı Asif Məlikov deyir ki, Avropa çempionatının qalibi kimi Vətənə dönəndə ulu öndər Heydər Əliyev bizi qəbul etdi və mən orada uşaqlıqdan polis olmaq istəyimi dilə gətirdim...

Beynəlxalq dərəcəli idman ustası olan A.Məlikov bu gün həm yarışlarda hakim kimi ədaləti, həm də uşaqları, yeniyetmələri kriminal təhdidlərdən qoruyur, cinayətkarlığın onlara bulaşmaması üçün mübarizə aparır. Bu işə övladına can yandıran ata kimi çalışdığı gözlərində lövbər salan qayğıdan da bəlli olur.

Axı, o, özü də Vətənimiz üçün silah götürüb vuruşan oğul atasıdır. Suqovuşan və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edən Emin Məlikzadə hər iki ərazimizin azad olunmasına görə və “Vətən uğrunda” medalı ilə təltif olunub. İkinci oğlu isə Kəlbəcərdə əsgər kimi xidmətdədir.

*R.Mehtiyev*




Son illər dəbə minən, zərərinin az olduğu iddia edilən elektron siqaret mütəxəssislərin araşdırma mövzusuna çevrilib.

Həqiqətənmi bu siqaretlər ziyansızdır? Acıbadem Adana Xəstəxanasının Kardiologiya sahəsi üzrə professoru Alpay Turan Sezgin "ziyansız" elektron siqaretlərin sağlamlığa vurduğu zərərləri izah edib.

Siqaret ürək-damar, xərçəng, damar tıxanması və sonsuzluqla bərabər 50-dən çox xəstəliyin yaranmasına səbəb olur. Buna görə siqaret çəkən insanlar bu vərdişdən ən qısa müddətdə imtina etməlidir. Ancaq son illərdə bir çox insan siqaret vərdişinin qarşısını almaq əvəzinə elektron siqaretə müraciət edir. Deyildiyi kimi heç də zərərsiz olmayan elektron siqaretləri ən çox siqareti tərgidə bilməyənlər istifadə edirlər. İstifadəçilərin 1/3 hissəsini isə əvvəllər siqaret çəkməyən və ya siqareti tərgitmək istəyənlər təşkil edir.

## Elektron siqaretin zərərləri

**Elektron siqaretdə nikotin**

Elektron siqaret boru içərisində maye, əsas tərkib hissəsi gliserol və ya propilen qlikol, nikotin, bəzən də ətirli aromatlardan ibarət olan bir cihazdır. Həmin qarışığı qızdıraraq tüstü halında xaric edir. Elektron siqaretlərdə istifadə olunan hər bir qarışıqda nikotin ola bilməz və ya miqdarı tələbə görə dəyişə bilər. Ancaq, satışda olan elektron siqaret markalarının əksəriyyətində nikotin var. Nikotini ehtiva edən tüstünün qəbul edilməsi ilə bədəndəki nikotin səviyyəsi 5 dəqiqə ərzində ən yüksək həddə çatır. Bu isə həyəcan təbili, həyat üçün risk deməkdir.

**Tərkibində qadağan olunmuş maddələr var**

Qliserin, propilen glikol və ətir ifraz edən aromatlar gündəlik yediyimiz qidaların hazırlanmasında da əlavə maddələr kimi istifadə olunur. Bu maddələr ağız vasitəsilə qəbul edildiyi üçün sağlamlığa təhlükə yaratmır. Ancaq tənəffüs yollarına siqaret, qəlyan və ya elektron siqaretlər vasitəsilə qəbul edildikdən sonra yarada biləcəyi fəsadları saymaqla bitməz. Heyvanlar üzərində keçirilən sınaqlar vasitəsilə sübut edilmişdir ki, gliserol uzun müddətli qəbul edildikdə xərçəng qabağı simptomlarda pozulmalar başlayır. Satışda olan elektron siqaretlərin tərkibindəki aktiv maddələrdə qliserin və ya propilen glikol əvəzinə yüksək miqdarda, istehlakı qadağan edilmiş etilen glikol vardır.

**Elektron siqaretin tüstüsü də zərərlidir**

Elektron siqaretlərdə ətirli qoxu verən tütünün tərkibindəki aromatlar aldehid quruluşuna malikdir. Bunların bəzilərinə qarşı bədəndə xüsusi bir reaksiya var. Yenə bir laboratoriya tədqiqatında elektron siqaretin və normal siqaretin tüstüsünün tənəffüs yollarına həmçinin ağciyərlərə zərərinin bərabər nisbətdə olduğu aşkar edilmişdir. Potensial kanserogen olduğu bilinən zəhərli maddələr elektron siqaretlərdə adi siqaretlərdən daha az olsa da, hər halda var.

**Siqareti tərgitməyə kömək etmir**

Elektron siqaretin adi siqareti tərgitməyə kömək edib-etməməsinə dair ən böyük araşdırma 700 nəfəri əhatə edib. Tədqiqat nəticəsində qruplar arasında siqareti buraxmaq baxımından statistik fərq olmadığı qənaətinə gəlinib. Buna görə elektron siqaretin adi siqaretdən xilas olmaq üçün kömək etdiyinə dair kifayət qədər dəlil yoxdur.

*Natiq Abdullayev*

## STATİSTİKA

### Kriminal icmal

- Avqustun 24-dən 31-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 424-nün, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 61-nin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 404, o cümlədən borclu şəxs qismində axtarışda olan 222 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 16 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 18 nəfər ölüb, 8 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 229, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 17 fakt müəyyən edilib.

*Natiq Cavadov*




**Səbail RPİ 41-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Bakı şəhər sakini N.Nağıyevdən nömrəsi silinmiş “AKM” markalı avtomat silahı, 1 ədəd patron darağı və 30 ədəd patron aşkar olunaraq götürülüb.

◆◆◆

**Nəsimi RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Şirvan şəhər sakini G.Əhmədova saxlanılıb. Onun yaşadığı oteldəki otağa baxış zamanı oradan 104 qram marixuana, 10 qramdan artıq heroin, 103 qram metamfetamin, 15 qramdan artıq preqabalin, metadon, 11 qram həşiş və 1 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb.

◆◆◆

**Şəmkir RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş Z.Əmiraslanov saxlanılıb. Şəxsi axtarış zamanı ondan 41 qramdan artıq tiryək, yaşadığı evə baxış zamanı isə “AKM” markalı avtomat silah, 1 ədəd patron darağı və 22 ədəd patron aşkarlanaraq götürülüb.

POLIS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik